# ÇALDIRANA GEDƏN YOL

## romandan səhifələr



Hüseynbala MİRƏLƏMOV

*(Əvvəli ötən saylarımızda)*

Mətləbə gəldikdə, bir-birinin ardınca göndərdiyin mübarək məktubların sayı üçə çatmış oldu. Gəlib çatan (məktubların) məzmununda ədavət, cürət və sərtliyin payı daha çox idi. Lakin onun mənşəyinin nə olduğunu bilmədik. Cənnətməkan atanızın zamanında, - Allah qəbrini nurla doldursun, - bizim uğurlu yürüşümüz Əlaüddövlə Zülqədərin dikbaşlığına görə Rum sərhədlərinə gəlib çıxsa da, hər iki tərəfdən dostluq və həmrəylikdən başqa heç nə müşahidə edilmədi. Cənabınız da Trabzon valisi olan zaman həmrəylik nümsayiş etdirdiniz. Hazırkı kin-küdurətin səbəbi isə məlum deyil. Düşünürəm ki, buna səni səltənət məqamı məcbur edir.

Şeir:

Söz dava-dalaşı o həddə çatdırar ki,
Köhnə dostluqları viran edər.

Bizim həmin bölgəni görməməzlikdən səbəbi iki şeydir: birincisi budur ki, o diyarın əksər sakinləri bizim əsil-nəcabətli əcdadımızın, - bağışlayan və qüdrətli Allah öz mərhəmətini onlardan əsirgəməsin, - müridləridir. (İkincisi isə İslam uğrunda vuruşan) o ailəyə olan məhəbbətimizin (tarixi) qədimdir. Teymurilər dövründən o diyara edilən yürüşü (təkrar etmək) istəmirdik və hələ də istəmirik. Bu olanlara görə incimirik, niyə də inciməliyik ki?!

Sultanlar (arası) ədavət, qədim ənənələrdəndir.
Kimsənin mələk gəlini kənarda yaxınlıq edərsə
İti qılıncın qırağına öpüş verər.

(Sultanlara) yaraşmayan ifadələrə gərək yoxdur. Şübhəsiz ki, həmin dinsiz ifadə və fikirlər katiblərinin və tiryək çəkməkdən beyinləri qurumuş mirzələrinin yazdığı uydurmalardır. Bu qədər ləngimələrin də bir zərurəti olduğunu düşünürəm. Buna görə də möhürümüzlə möhürlənmiş xüsusi keyfiyyətli qızıl ilə dolu bir mücrünü (qutunu) ən yaxın və etimad etdiyimiz Şahqulu ağa, - ruzisi bol olsun, - ilə birlikdə göndərdim ki, əgər lazım olarsa istifadə edərsən. Tezliklə gəlib çıxacaqdır. Allahın köməyi ilə qəzavü-qədərdə nə yazılıbsa, o da baş verəcəkdir. Amma kiminsə sözünə əhəmiyyət verməmədən ciddi şəkildə düşün ki, sonrakı peşmançılıq fayda verməz.

Bu məktub biz İsfahan torpaqlarında ov edərkən yazıldı. Sizinlə dərhal qarşılaşmağa tədarük görməyə başlamaqla yanaşı, dostcasına cavab yazdıq ki, istədiyiniz kimi hərəkət edəsiniz (seçim sizindir).

Sənin bu istəyini çoxları təcrübə etdilər.
Əli övladlarına qarşı çıxan məğlub olar.

Səni çox incitmədən «heç bir günahkar başqasının günahını daşımaz» demək istəyirəm ki, əgər (bu iş müharibə ilə nəticələnəcəksə, süstlük edib yubanma. Lakin sonunu da düşün, vəssalam». Məktub elə həmin gün İsfahandan Sultan Səlim sarayına yola salındı.

Şah İsmayıl məktubu göndərəndən sonra xeyli yüngülləşmiş kimi idi. Özündə xoş bir əhval hiss edirdi. Ancaq iş burasında idi ki, müharibəyə hazırlaşmaq məqsədi ilə İsfahan ətrafından Təbrizə getməyi düşünürdü. Təbrizdən əyalətin müxtəlif tərəflərinə çaparlar sürətli hərəkət edə bilirdi və az vaxt içərisində ölkənin hər tərəfindən xəbər tutmaq mümkün olurdu. Ona görə də Şah tezliklə yığışıb Təbrizə getmək haqqında qərar verdi.

Şah yola düşməzdən əvvəl sevimli xatunu Taclıya baş çəkmək, artıq vəliəhd olduğunu elan etdiyi kiçik Təhmasib Mirzəni görmək istədi. Onsuz da Taclı Bəyim də baş verən hadisələrin istiqamətini haraya apardığını artıq bilirdi. Onun Taclı ilə görüşməkdə məqsədi vardı. İstəyirdi ki, Taclını İsfahanda qalmağa razı salsın. Şah taclı xanımın yanına daxil olanda axşamdan xeyli keçmişdi. Saraydа da əl-ayaq çəkilmiş, sakitlik yaranmışdı. Bu sakitliyin əhatəsində Taclı ilə arxayın söhbət edə biləcəyinə, onu arxayın salacağına inamla sevgilisinin sarayın yuxarı başındakı rahat və geniş hücrəsinə daxil oldu.

Taclı Şahın gəlişindən xəbərdar idi. Çünki Şah öz xidmətçilərindən Taclıya xəbər göndərmişdi ki, ona qonaq olmaq istəyir. Əlbəttə, Taclı bundan çox sevinmişdi. Şahın belə bir gərgin vaxtda ona diqqət ayırması qibtə olunası bir hal idi. Taclı az-çox vaxtdan istifadə edib özünə əl gəzdirmiş, çox qiymətli müşkiləri otaca səpmiş, özü də saçına, boyun-boğazına çəkmişdi.

Şah qapını açanda sanki onu bir cənnət qoxusu vurdu. Bir an şamların işığında aydın görünən mənzili gözdən keçirdi. Oğlu otaqda yox idi. Yəqin ki, xüsusi dayələrin nəzarətində idi. Taclı qənirsiz bir heykəl kimi mənzilin ortasında idi. Elə bil ki, şamlardan biri də onun özü idi. Sanki şamlar hərəsi bir ulduz, o, özü Ay idi, bərq vururdu. Taclı əvvəlcə yerində tərpənməyə tərəddüd elədi. Ümumiyyətlə, saray xanımlarında belə bir adət var idi ki, hökmdar özü yaxınlaşmayana qədər heç bir xanımı hökmdara yaxınlaşmağa cəsarət edə bilməzdi.

Ancaq Taclı şamların gur işığında hökmdarın gülümsədiyini, nurlu bir təbəssümlə otağın işığını daha da artırdığını düşündü. O, bu təbəssümlə sanki hökmdarın niyyətini də oxuyurdu. Elə bəlkə, bu səbəbdən onun ayaqlarına cəsarət, ürəyinə təpər gəldi.

Taclı daha heç nə düşünmədi, cəsarətli addımlarla yerindən tərpənib hökmdara sarı irəlilədi. Bayaqdan bəri sanki heykəl kimi yerində dayanmış Taclı elə bil ki, qəflətən cana gəlmişdi. İlahi bir hissin təsirilə onun varlığına güc gəlmiş, istəyi və bütün sevgisi onu hökmdara sarı çəkmişdi.

Xeyli vaxt idi ki, Şah İsmayıl Taclı ilə bir araya gələ bilmirdi. Buna vaxt və imkan tapmırdı. Ötən günlərin həsrəti oda-alova dönmüşdü. Və indi onların hər ikisi açıq-aşkar duyurdular ki, nə qədər həsrət çəkiblər. Müharibə də, baş verən hadisələrin vahiməsi də hökmdar sarayının Təbrizə köçmək məsələsi də... bir sözlə, hər şey yaddan çıxmışdı. İndii onlar öz aləmində idilər. Şahın qolları sevgilisinin belinə dolanmışdı. Taclı da incə, ağ əllərilə Şahın həmişə tac altında olan, amma indi onun gözlərinin önündəki sıx saçlarına sığal çəkirdi.

Sonra daha nələr oldu... bunu gənc hökmdar da, gənc xatun da deyə bilməzdi. Çünki olanların haması İlahi bir istəyin nəticəsi kimi baş verirdi.

Şah elə Taclının yanında qalmışdı, gecəni burada keçirmişdi. Səhər oyandı. İstəyirdi ki, hələ gözləri yumulu olan Taclını yuxuda qoyub sakitcə çəkilib getsin. Ancaq Taclı gözünü açdı. Sanki sevgilisinin çıxıb getmək niyyətini anlamışdı. Onun gözlərinin altına bir kədər buludu gəldi. Əlini uzadıb elə öz yerində şahın saçlarını bir də sığalladı, əlini üz-gözündə gəzdirdi. Sonra dodaqlarına vurdu. Şah onun barmaqlarının dodaqlarında hiss etdikcə öpüşlərə qərq etdi.

Şah Taclının yanına hansı məqsədlə gəldiyini və ona nə deyəcəyini unutmamışdı. Ancaq bu barədə heç nə demədi.

...Şah Taclının yanından çıxanda gün günortadan keçmişdi.

* * *

Sultan Səlim yuxudan tez ayılsa da, yay səhərinin günəşi onun yatdığı otağı işıqlandırsa da, yerindən qalxıb günün işinə başlamaq istəmirdi. Təbiətən çevik, səhər vaxtında oyanan, bağ-baxçanı gəzməyə meyilli olan Sultan Səlim indi yerindən niyə qalxmaq istəmirdi? İş bunda idi ki, o, gecə yuxusunu qarışdırmış və xeyli nigaran yatmışdı. Əgər buna yatmaq demək mümkün isə. Alayarımçıq yuxusunu qovandan sonra beyni sabaha qədər işləmiş, baş verəcək olayları çək-çevir etmişdi. Yuxusunda görmüşdü ki, bir tuluğa şərab doldururlar. Əvvəlcə elə bilmişdi ki, bu, sudur. Ancaq rənginin qırmızı olmağından anladı ki, yox, su deyil. Nə isə qəribə bir ətri də vardı. Heç indiyə qədər şərabın belə ətrinin olmağını görməmişdi. Amma tuluğa o ki var, bu qırmızı mayeni kimsə doldururdu. Tuluq isə bir ucdan şişməkdə idi; şiş ki, şişəsən

Hökmdara təəccüblü gələn bu idi ki, axı bir ucdan doldurulan tuluq niyə aşıb-daşmır? Əvəzində şişməkdə davam edir. Sultan Səlim başını yaxınlaşdırıb tuluğa diqqətlə baxmaq istəyəndə kimsə bu qırmızı mayedən bir piyalə doldurub ona verdi. Maye doldurulmuş piyaləni alıb diqqətlə baxan hökmdar sanki bu qırmızı mayenin ətrindən məst oldu. Çox güclü bir istək gəldi ona bu piyaləni içmək üçün. Ətrafına baxıb kimsədən nəsə soruşmaq, bu mayenin haradan gəldiyini və onu kim buraya gətirdiyini öyrənmək istəsə də bir kimsəni görmədi. Ancaq piyaləni içmək istəyi onu hələ də tərk etməmişdi. Bütün varlığı ilə bu qırmızı rəngli mayeni içmək istəyində idi. Piyaləni başına çəkdi və qəribə bir dad hiss etdi. İndiyə qədər içdiyi şərabların dadı deyildi bu dad. Sultana elə gəldi ki, bu qeyri-adi badə ilə kimsə onu zəhərləmək istəyib. Ancaq kim olduğunu da anlaya bilmirdi. Başında yaranan duman onun əhvalını məst eləyən bir ovqat isə təlqin edirdi ki, o, yenə bu piyalədən içsin. Onda daha gözəl əhval hiss edəcək və o da piyaləni bayaqkı görünməz ələ tərəf uzatdı. Bir anda gördü ki, piyalə yenə doludur. İkinci piyaləni də belə başına çəkdi. Üçüncünü, dördüncünü... ancaq doymurdu. Axır ki, tuluğun özünü götürüb başına çəkmək istədi. Və əlində olan tuluq birdən-birə qəflətən partlayıb dağıldı. Sultan bütövlükdə başdan-ayağacan bu qırmızı maye ilə boyandı. Və indi anladı ki, bu şərab deyilmiş, bu qan imiş. Ancaq onu nə üçün içdiyini indi yaddaşına gətirə bilmirdi. Və ona elə gəldi ki, tuluqdan dağılmış maye get-gedə dalğalanır və onun ətrafında qalxmağa başlayır. Bir az da keçsə o, bu qanın içərisində boğulacaqdı. Əllərini o yanbu yana atıb qışqırır, köməyə, haraya adam çağırırdı. Amma bir kimsə ona köməyə gəlmirdi. Elə son boğulma həddindəykən qəflətən yuxudan ayıldı, gözlərini açıb ətrafa baxdı.

...Pəncərədən ay işığı düşürdü. Otaq süd kimi işığa bələnmişdi. O, ətrafa baxdı və heç kimi, heç nəyi görmədi. Şərab da, qan da, göl də... heç nə yox idi. Di gəl ki, o, gördüyü yuxunun vahiməsi içərisində vurnuxmaqda idi. Neyləməlidir, nə iş görməlidir ki, son nəticədə yuxusunun çin olmağı onun öz xeyirinə qurtarsın. Hələ öz yerinin içərisində onun canına bir üşütmə gəldi. Əlini sinəsinin üstünə qoydu. Ürəyi quş ürəyi kimi çırpınırdı. Hara baxırdısa, gözlərinə qan görünürdü. Qardaşları bir tərəfdə dayanıb onun bu əməllərinə baxırdılar. Əhməd lap ağ eləyir, əlini-əlinə vurub gülürdü. Heç Qorqud da ondan geri qalmırdı. O da Sultan Səlimin bu qorxaq durumuna rişxəndlə gülürdü. Atası Sultan II Bəyazid bir qədər kənarda, lap hündürdə idi. O, həm Sultan Səlimin özünü görür, həm də digər oğullarının ovqatlarına tamaşa edirdi. Və atasının da üzündə bir istehzalı təbəssüm vardı. Ha illah etdi ki, atasının gözlərinə baxa bilsin, amma baxa bilmədi. Çünki ona elə gəldi ki, o, əllərini uzadıb elə indi, bu dəqiqədə atasını boğmaqdadır.

*(Davamı var)*